https://palitranews.az/news.php?id=133951

# Benefisiar sahibliyin açıqlanması iqtisadiyyatın inkişafında mühüm əhəmiyyətə malikdir

Tarix: 22.06.2020



Bu gün dünyada ayrı-ayrı ölkələrin iqtisadiyyatı, eləcə də bütövlükdə cəmiyyətləri üçün maraqlı olan mühüm məqamlardan biri də Hasilat Sənayesində Benefisiar Sahibliklə bağlıdır. Öncə oxucular üçün onu qeyd edək ki, benefisiar sahibliyin bir neçə izahı, yəni tərifi mövcuddur. Məsələn, Benefisiar sahibin kimliyi ilə bağlı iki tərifi misal gətirmək olar. Fiziki şəxs olan BS-nin ilk olaraq Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü (MHŞT) standartında olan tərifini diqqətinizə çatdıraq: Benefisiar sahiblik "şirkətə münasibətdə mənfəət sahibi, birbaşa və ya dolayı yolla korporativ qurumun sahibi və ya ona nəzarət edən fiziki şəxs və yaxud şəxslər deməkdir." Onu da qeyd edək ki, yalnız fiziki şəxslər benefisiar sahib ola bilərlər. Şirkətlər və ya digər hüquqi şəxslər benefisiar sahib ola bilməzlər... Benefisiar sahibin digər bir tərifini isə G8 Fəaliyyət Planından misal çəkmək olar olar: "Birbaşa və ya dolayı yolla, hüquqi şəxs üzərində əsaslı nəzarəti həyata keçirən və ya bir neçə istisna olmaqla, bu hüquqi şəxsə əhəmiyyətli iqtisadi maraq göstərən yaxud böyük iqtisadi mənfəət əldə edən fiziki şəxs." Təbii ki, burada diqqət çəkən məqam söhbətin adi, kiçik halda deyil son faydanı götürən və böyük iqtisadi mənfəəti əldə edən fiziki şəxsdən getməsidir. Yəni iqtisadi mənfəətin adi mənfəətdən fərqləndiyini nəzərə alsaq, məsələyə bu konteksdə-BS konteksində yanaşsaq, daha geniş mənada faktiki olaraq bu və ya digər şirkətin indiki bütöv kapitalına yox, gələcək faydasına, varlığına nəzarət edən şəxsdir. Adətən bu adamlar böyük nüfuza malik olur, cəmiyyətdə kifayət qədər tanınan, geniş maliyyə imkanlarına malik şəxslər olurlar. Həmin şəxslər də arxa planda görünməyərək bu

şirkətlər vasitəsilə faktiki olaraq hər il bu və ya digər vəsaiti deyil, bütövlükdə şirkətin miqyasını artıra-artıra iqtisadi mənfəətini gücləndirirlər. Yəni benefisiar sahibi təxmini belə də anlamaq olar ki, benefisiar sahiblik nəticə etibarilə şirkətin sahibi və şirkətdən və ya kommersiya fəaliyyətindən maliyyə şəklində fayda əldə edən şəxslərə işarə edir.

Benefisiar sahibin kim olması haqqında danışanda biz bir qədər daha detallı desək uğurlu Benefisiar Sahibin təriflərini də qeyd etməliyik. Oxucular üçün Uğurlu Benefisiar sahiblərin hansı prinsipləri özündə ehtiva etdiklərini xatırladaq:

Məsələn, son (ultimate) faydalanan sahib: Birbaşa səhmdarlardan kənarda duranlar. Reyestrdə olan səhmdarlar mütləq qaydada mənfəət sahibləri deyillər. Son faydalanan sahibdirlər. Yəni bir qədər sadə dildə desək biri var ki, şirkət müəyyən bir məbləğə malikdir və oradan müəyyən bir hissə kiməsə çatır. Biri də var ki, bütövlükdə şirkətin taleyi bir nəfərdən asılıdır və gəlirlərdən son "ünvan" olaraq, yaxud illər sonra bir adam tam şəkildə faydalanır. Adətən bu insanlar birbaşa səhmdarlardan kənarda duranlar olurlar. Amma belə şəxslər şirkətin birbaşa səhmdarları da ola bilərlər və birbaşa divident əldə edə də bilərlər. Əgər reyestrdə səhmdarlar varsa, onlardan biri benefisiar sahib ola da bilər. Ancaq bu cür məsələlərin araşdırılmasında-benefisiar sahibin tam şəkildə ortaya qoyulmasında əsas hədəf reyestrdə olan səhmdarlar deyil, son faydalanan sahibin tapılmasıdır. Yəni araşdırmalarda o məqam vacib və önəmli deyil ki, həmin şəxs-benefisiar sahib hazırda səhmdarlar sırasındadır ya yox...

Bu mövzuda iqtisadi fayda məsələsi də çox önəmlidir. Yəni biz yuxarıda detallı izah edərkən Benefisiar Sahibin son (ultimate) faydalanan sahib kimi izahatını verdik. İkinci məqam kimi izah isə iqtisadi fayda amilidir. İqtisadi fayda: Şirkətin iqtisadi mənfəətinin əhəmiyyətli hissəsini (məsələn, artıq pulu) əldə etmək üçün dolayı münasibətləri və ya digər qeyri-kapital təsiri olan insanları əhatə etməlidir. Yəni təsəvvür edək ki, bir rəhbərin heç yerdə adı getmir, hansısa halda ya yaxın adamı, qohumu və ya ondan asılı olan bir səhmdar vasitəsilə bu işləri əhatə edir.

Digər mühüm məqam isə nəzarət amilidir. Nəzarət: Şirkət qərarlarında əhəmiyyətli söz sahibi olmayan səhmdarları əhatə etməlidir (məsələn, etibarnamələr vasitəsilə "nəzarət").

**Hansı ölkələr BS-dən maksimum yararlanmağa çalışırlar?**

Bəs sual yaranır, hansı ölkələr benefisiar sahibliyin açıqlanmasında maraqlı olurlar, ümumiyyətlə benefisiar sahibliyin açıqlanmasının hansı əhəmiyyəti var? Ümumiyyətlə iqtisadçı ekspertlər də daim vurğulayırlar ki, büdcəsinin həcmindən, iqtisadiyyatının gücündən, inkişafından asılı olmayaraq dünya ölkələrinin hər birində benefisiar sahibliyin açıqlanması hər zaman mühüm əhəmiyyətə malik olub. Bu, yəni benefisiar sahibliyin açıqlanması, bu istiqamətdə müəyyən təşkilatlarla sıx əməkdaşlıq çox vacibdir. Çünki belə olmadığı təqdirdə həmin ölkələrdə büdcəyə, iqtisadiyyata vurulan 2 əsas zərər gizlədilə bilər. Məsələn, birinci zərər korrupsiya amilidir. Bu da özündə hökumət və şirkət müqaviləsi/lisenziyası prosesində maraqlar konfliktini, rüşvət, pulyuma, müqavilə saxtakarlığını ehtiva edir.

İkinci məqam isə vergidən yayınmadır. Bura isə transfer qiymətləri, ticari qiymətlərin

manipulyasiyası və s. kimi məsələlər daxildir.

Maraq üçün qeyd edək ki, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünü icra edən region ölkələri arasında benefisiar sahibliyin açıqlanması tələbini qanunvericiliyə daxil edən ilk ölkə Ukrayna olub. Bu ölkədə 2015-ci ilin fevralından "Cinayət yolu ilə əldə edilmiş çirkli pulların yuyulmasının, terrorizmin və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşməsinə qarşı mübarizə və qarşısının alınması haqqında" Qanun qüvvəyə minib. Bu qanunda benefisiar sahibkar anlayışının dəqiq izahı verilərək, onun formal sahibinin kimliyindən asılı olmayaraq, hər hansı hüquqi şəxsin fəaliyyətinə təsir etmək imkanlarına malik fiziki şəxslər olduğu qeyd edilir. Bu zaman benefisiar sahib hüquqi şəxsin bütün aktivlərinə və ya aktivlərinin əhəmiyyətli hissəsinə sahib ola, və ya onlara təsirlərə malik ola, səsvermənin nəticələrinə və müqavilələrin həyata keçirilməsinə təsir edə idarə orqanına əmr vermək, yaxud onun funksiyasını həyata keçirmək imkanına malik ola nəhayət, hüquqi şəxsdə birbaşa və ya dolayı yolla 25 faiz və daha artıq paya malik ola bilər. Qanunda dəqiq qeyd olunub ki, hüquqi şəxsin nizamnamə kapitalının 25 faiz və daha artıq hissəsinə formal sahiblik və ya səs hüququna malik olan, lakin agent, yaxud vasitəçi rolunu oynayan şəxslər son benefisiar sahibkar ola bilməzlər. Ukraynada biznes fəaliyyəti göstərən bütün hüquqi şəxslər benefisiar sahiblərinə dair məlumatları Vahid Dövlət Reyestrinə təqdim etməlidilər.

Avropa Parlamenti isə 2015-ci ilin mayında "Çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə 4-cü qətnamə"sini qəbul edib. Qətnaməyə əsasən Avropa Birliyinin üzvü olan bütün ölkələr benefisiar sahibliyə dair reyestr yaratmalı, Avropa İttifaqı dövlət və hüquq-mühafizə orqanlarının oradakı məlumatlara çıxışını təmin etməlidilər. Sonradan qətnaməyə edilən dəyişikliyə əsasən üzv ölkələr reyestrlərindəki şirkətlərin benefisiar sahibliyinə dair və trastların (qarşılıqlı etibara əsaslanan şifahi və ya yazılı razılaşma əsasında yaradılan şirkətlər) kommersiya fəaliyyəti ilə bağlı bir sıra məlumatlara açıq girişi təmin etməlidilər.

Yeri gəlmişkən qeyd edək ki, mütəxəssislər benefisiar sahibliyin açıqlanmasının Azərbaycanın hasilat sənayesilə əlaqəli faydalarının çox olmasını da deyirlər. Belə ki benefisiar sahibliyin açıqlanması ictimaiyyətə müəyyən şirkətlərin əsl sahibini və ya kommersiya fəaliyyətindən faydalanan şəxsi müəyyən etməyə imkan verməsi Azərbaycan iqtisadiyyatına müsbət rəng qata bilər. Bu. Azərbaycana investisiya qoyan və ya burada hasilat sənayesi sahəsində müqavilə imzalayan şirkətlərdə inam və etibarın çoxalmasına xidmət etməklə biznes fəaliyyətini də asanlaşdırır. Əlavə olaraq, bu amil hökumətə nəticə etibarilə kimin nə qədər gəlir əldə etdiyini izləməyə, vergi, rüsum və digər ödənişlərin toplanmasından əmin olmağa imkan verir. Həmçinin bu cəmiyyətə tam açıqlılıq nümayişi Azərbaycanın hasilat sənayesində şəffaflığa və yaxşı idarə olunmasına töhfə verə bilər. O da qeyd edilir ki, dünyanın hər yerində benefisiarlarını açıqlayan şirkətlərə birjalara yol açılır, belə şirkətlərə investorların inamı da ictimai etimad da artır. Ona görə də haqqında söz açdığımız məlum istiqamətdə gələcəkdə ölkəmizdə də müəyyən hüquqi və əməli addımların atılması yaxşı olardı...

**Tural**